# AZƏRBAYCAN TEATRI

## YENİ TARİXİ ARAŞDIRMA

**İstedadlı tədqiqatçı-alim, fəlsəfə doktoru Ədalət Vəliyev teatr tariximizə yeni bir töhfə vermişdir. "Teatr" adlanan monoqrafiyanın orijinal mövzusu, ciddi tədqiqi, böyük tarixi əhəmiyyəti vardır.**

Peyğəmbər Salavatullah buyurur ki, bildiklərinizi vaxtında yazın. Bu fikrin işığında Ədalət Vəliyevin kitabını oxudum, ürəyim çox doldu. Nəzəri fikirlərimi yazmazdan öncə, yalanı sevməyən, hər adamı yaxınına buraxmayan, sözünü cəsarətlə deməyi bacaran, nüfuzlu baxışlarından zəhm, gözlərindən elm boylanan bir şəxsiyyətin surəti canlandı gözlərimdə:

"Milli Teatrın səhnəsində fəhlə işləməyimlə fəxr edirəm!" Əlbəttə, belə məntiqi ifadənin məfhumu ağıllı insanların yozumunda daha dəqiq qabarır və açılır. Bu məqamda əsərləri dünyanın şahanə teatrlarının səhnəsini titrədən dahi Şekspirin səhnə sənətinə gəlişi yadıma düşdü: o, teatrda ilk dəfə mehtər kimi işə başlamışdı. Lakin heç kəs bilmirdi ki, onun daxilində necə tükənməz fitri istedad gizlənib. Daxilimi daha ciddi bir fakt da titrədir: Alın yazısı insanı bəxtinin parlayacağı astanaya qədər müşayiət edir. Sonrası qəlbin, ağlın və məntiqin üstünə düşür.

Istedadlı teatrşünas-alim, təşkilatçı-pedaqoq Ədalət Vəliyevin "Teatr" adlı monoqrafiyası çox nəfis, müəllifinin incə zövqünə uyğun, gözəl tərtibatla çapdan çıxmışdır. Kitabın üzqabığında foto oxucunu nə qədər düşündürürsə, super qabığın iç qatındakı epiqraf kimi verilmiş sözlər bir o qədər kövrəldir: "...Teatr mənim həyatımdır... Mən yenə özümü teatrın fəhləsi hesab edirəm. Və bununla fəxr edirəm."

Bu dərin və gizli eşqin parametrlərinə diqqət edib düşünəndə görürük ki, Ədalət Vəliyevin bir alim kimi elmi məqalələrinin, bura qədər çap olunmuş kitablarının, ümumiyyətlə, bütün həyatı boyunca fəaliyyətinin məntiqi nəticəsi elə bu kamil şəxsiyyətin teatrla nəfəs almasının, ona olan sönməz eşqinin törəməsidir. Bu törəmənin ciddi bir qanadını təşkil edən "Əqidə, Ruh və Teatr" monoqrafiyası da ciddi və mürəkkəb mexanizmlə işləyən teatr sənətinin elmi gələcəyinə həsr olunmuşdur.

***

Konseptual teatrşünas kimi çox ciddi və həlledici sözə malik bir sahədə sanılıb-seçilən sənətşünaslıq doktoru, professor Məryəm xanım Əlizadə hər hansı müəllifin kitabına elmi redaktor imzasını bağışlayan sənətkar deyil. Ədalət Vəliyev kimi ciddi bir teatr bilicisinin kamilliyin təcəssümü kimi dəyərləndirdiyimiz bu kitabına əsil həqiqətdə hər bir teatr bilicisi ön söz yazmaq və fərdi imzası ilə bu kitaba düşməyi arzulaya bilər. Çünki kitab dərin konseptual qatlara malik mühakimə və şərhlərlə zəngindir.

Monoqrafiyanın girişində müəllif belə fikrin aurasına daxil olur: "Teatr əqidə və ruhun güzgü-

ləndiyi məkandır." XX əsrin ikinci yarısında Azərbaycan mədəniyyətində milli teatr konsepsiyalarının sosial-fəlsəfi və siyasi-ideoloji paradiqmasını açıqlayan müəllif teatrın cəmiyyətin güzgüsünə çevrilmə prosesinin tarixi və çağdaş proseslərini, həmçinin onun praktik empirikasının qatlarını güzgü qarşısında qoyur. Ulu öndərin: "Teatr Azərbaycanda mədəniyyətin, xalqımızın milli ruhunun, milli dirçəlişin inkişafında, ümumiyyətlə, xalqımızın mədəni səviyyəsinin yüksəlməsində böyük rol oynamışdır,"- fikrinə istinadən tədqiqatçı cəmiyyətin yaşayış tərzinin dramaturji materiala çevrilməsini də izahlayır. O, elmi araşdırmasının bu bölümündə səhnə obrazlarının bir model kimi cəmiyyətdən törəndiyinə faktlar və rəqəmlər kontekstində yanaşır.

Teatrın mayası canlı insan ünsiyyətindən yoğrulub. Ötən əsrin əllinci illərindən başlayaraq, bu günə kimi üç dəfə "teatrın ölümü" məsələsini meydana atan kinorejissor Mixail Romm, bizim teatrşünasımız Aydın Talıbzadə və Moskva teatrşünası Mixail Şvıdkoy kimi sənət bilicilərinin fikirlərinin aktuallığı məsələsinə ciddi şəkildə yanaşan tədqiqatçı-alim bu faktın müasirliyi və ona konseptual yanaşmanın vacibliyini göstərmiş, çağdaş mədəni mühitimizdə böyük əhəmiyyət kəsb etdiyi üçün onu tədqiqat obyektinə çevirmişdir. Faktın alət kimi meydana atılıb tədqiqat obyektinə çevrilməsi bir daha onu sübut edir ki, Ədalət Vəliyev bütün həyatını həsr etdiyi, qeyri-adi məhəbbətlə sevdiyi teatr sənətinin yaşaması, inkişafı, dünya standartlarına uyğun olması üçün böyük səylə çalışır. Müasir teatr modelinin dəqiq formalaşması üçün düşünməsi və fərdi baxış bucağında fikir açıqlaması müəllifin zamanın içində ağıllı baxışlarının törəməsi kimi dəyərləndirilməlidir.

Bu gün "Ölüm və olum" qarşısında ciddi sınağa tuş gələn teatr sənətimizin yaşaması, inkişafı üçün optimal işlək mexanizmin axtarılıb tapılması məsələsinə məqsəd kimi baxan istedadlı tədqiqatçı monoqrafiyada qoyulan əsas problemin həllini elə əsərin girişində açıqlayır.

Azərbaycan teatrşünaslığında tədqiqatın mövzusunun orijinallığı ondan ibarətdir ki, ilk teatr konsepsiyalarının bədii-estetik mündəricəsinin parametrlərini, onların ictimai-sosial, siyasi-ideoloji paradiqmasını ilkin təsnifat etsin, milli mədəniyyətdə bu konsepsiyaların yerini və əhəmiyyətini müəyyənləşdirsin, teatr sənətinin inkişafından ötrü kəsb etdiyi önəmi dəyərləndirsin.

Konseptual və praktik teatr gerçəkliyinin indiyə qədər toxunulmamış sahəsinə müdaxilə edib onu ciddi analizlə ağıllı oxucularının öhdəsinə verən müəllif dəqiq və müqayisəli informasiya ötürümü ilə alimlik dərəcəsinin sərhədlərini aşaraq, doktorina zirvəsinə daxil olur.

Birinci fəsil "Azərbaycan teatrı tarixi prosesə mənəvi-əxlaqi, bədii-estetik və kulturoloji reaksiya kimi" adlanır. Müəllif fəslin adını sətiraltı sual halında formalaşdırırsa, sondakı qənaətləri ilə sanki bu suala cavab verir ki, məktəb də, teatr da sözlə təməllənir.Ona görə də tədqiqatçılar teatrımızı tarix müstəvisində təsnif etmişlər. Sonra müəllif sözün təcəssümü üçün onu insanın fiziki fəaliyyətində sirli və sehrli bir vasitə kimi aktyor-müəllim kontekstində izahlayır və fəslin məntiqi nəticəsinə hərarət verir. Çünki növbəti fikir gedişi, tarixilik baxımından dəyərləndirilir. "Teatr məktəbdir", "teatr məbəddir" konseptləri də öz növbəsində zamanın,tarixin teatra təlqin etdiyi mövcudluq tərzləridir.

"XX əsrin 50-60-cı illərində Azərbaycan teatr mədəniyyətində "Şəxsiyyət və kollektiv" qarşıdurumunun yaradıcı atmosferə təsiri problemi" fəslinin əsas mahiyyəti ondan ibarətdir ki:"...teatr cəmiyyəti, dövrü, zəmanəni özündə fokuslaşdırır.Teatr cəmiyyətin üstünə salınmış basma kimi bir şeydir: cəmiyyətdə gəlişən əqidələri, cəmiyyətin ruhsal oriyentirlərini, mənəvi-əxlaqi dəyərlərini, ideologiyasını öz canına hopdurur.

Cəmiyyət necədirsə, teatr da elə o cürdür. Teatr dövrə, zəmanəyə, cəmiyyətə adekvat reaksiyadır. Keçmiş SSRİ-nin siyasi-ideoloji məkanında "kollektiv və şəxsiyyət" qarşıdurması necə həll olundusa, teatrda da elə o cür əks-səda verdi. Odur ki, Adil İsgəndərovu hüdudsuz hakimiyyətə malik bədii rəhbər kimi teatrda heç bir qüvvə saxlaya bilməzdi." Tədqiqatçı bu nəticəyə qədər çox ciddi faktların fonunda, teatr cəmiyyəti, dövrü, zəmanəni fokuslaşdırdığı kimi fikirlərini Adil İsgəndərovun bütün fəaliyyətini fikir güzgüsünə salaraq, onu, dövrünü və çağdaşlarını fokuslaşdırır.

"Dövrün sosial-siyasi direktivləri müstəvisində Milli Teatrın yeni estetik tendensiyalar axtarışı" bölməsində də estetik təsirin tarixi aspektləri geniş şərh olunmaqla yanaşı, dövrün sosial-siyasi direktivləri müstəvisində Milli Teatrın yeni estetik tendensiyalar axtarışının tablosu yaradılır, həm də teatr nəhəngləri sayılan Adil İsgəndərov, Mehdi Məmmədov və Tofiq Kazımov kimi rejissorların hər birinin fərdi və orijinal dəst-xətti ilə teatr səmərələşdiricilərinin taleyi, fəaliyyəti, keşməkeşləri tablo gerçəkliyinə çevrilir. SSRİ kimi nəhəng və vahiməli bir dövlətin bürokratik idarəçilik hökmü altında güclü təbliğat vasitəsi sayılan, canlı nəfəslə oynanılan teatr sənətinin qorunması və mahiyyətinin məqsədəmüvafiq şəkildə yönləndirilməsi olduqca çətin bir iş idi.

Adil İsgəndərovun sənət meyarlarını hər şeydən üstün tutması, Mehdi Məmmədovun ona alternativ ola bilməməsi,Tofiq Kazımovun novator siyasəti, bütövlükdə müstəqil teatr yaradıcılığı,lakin həyatını dəyişməsi ilə bu arzusunun nakam qalması dövrün ictimai-siyasi hadisələri fonunda şərh edilir.Bu da bir faktdır ki, qüdrətli şəxsiyyətlər Azərbaycanın teatr sənətinin intibahı naminə özlərini böyük risk altında qoyurlar.

Məhz belə fədakarlığın naminə Tofiq Kazımov teatr poetikasını dəyişir. Teatrın bədii-estetik prinsiplərinə qarşı çıxaraq, səhnəyə psixologiyanı gətirməsi onu ittihamlarla üz-üzə qoyur.Lakin 70-ci illərdə Milli Dram teatrının içindən bütün Sovetlər Birliyi,onun sosial-ideoloji, maddi-iqtisadi vəziyyəti görünürdü. Teatr Sovet İttifaqının özü kimi durğunluğa düçar olmuşdu. Və bu, onu göstərir ki, ictimai-siyasi proseslərlə teatr prosesi bir-birini unison formada tamamlayır, biri digərinin məntiqi davamı olur.

Tədqiqatçı yeni milli teatr konsepsiyaları və onların sosial-fəlsəfi və siyasi-ideoloji kontekstində 70-80-ci illəri milli şüurun oyanışı, dirçəlişi zamanı kimi dəyərləndirir. 90-cı illərdə milli emosiyaların püskürməsi, milli özünüdərk prosesinin sürətlənməsi 70-ci illərin atmosferilə üzvi şəkildə əlaqələnir.Onu da qeyd etməyi özümüzə borc bilirik ki, müəllif məxəzlərdən istifadə etməklə kifayətlənmir, şahidi olduğu, ağlının süzgəcindən süzüb məntiqi nəticəsini düzgün çıxardığı təhlilləri ilə mövzusunu son dərəcə dərinləşdirir.

70-80-ci illərin teatr avanqardının Azərbaycan teatr mədəniyyətinə gətirdiyi yeniliklər dəqiq tezislərlə sərgilənir. Məsələn: teatr kökündən müasirləşdirilib aktiv şəkildə ictimai-siyasi hadisələrin axarına qoşulur, teatr mədəniyyətinə demokratik mövqe aşılanır, müasir teatr dəbi formalaşır, milli teatr sənətimizin qavranılmasından ötrü kütlə üçün şərait yaranır və onun sosial-siyasi ədalətsizliyə barışmaz olduğu göstərilir.

Eyni zamanda, bu proses bədii-fəlsəfi məfkurənin dəyişməsinə münbit şərait yaradır, "əvvəl professionalizm, sonra yaradıcılıq və improvizə" devizi teatr düşüncəsini mühüm sənət devizi və şərti kimi bəyan edir, milli teatr mədəniyyətinin Avropa teatr məkanına inteqrasiyasından ötrü ilk addımlar atılır və bu prosesin sürətlənməsinə təkan verilir. Yeni milli konsepsiyaların bədii-estetik və kulturoloji xislətini şərh edərkən müəllif təkcə tarixi faktları araşdırmır, həm də onlara gələcəyin prizmasından baxır. Bu fikirlərin şərhi zamanı müəllif həm də təcəssümü verilən səhnə əsərlərinə rejissor müdaxiləsi, məkan və zaman kontekstində həlli məsələlərinə də toxunur.

Hörmətli tədqiqatçının kitabda fəsil və bölmələrə verdiyi adların belə çoxqatlı məna yükü var:"XX əsrin sonunda milli özünüdərk prosesi və "Azərbaycan cəmiyyətində teatrın yeri" probleminin aktuallaşması." Müəllif haqlı olaraq, dilimizdə "qaçqın" və "köçkün" sözlərinin peyda olduğu günlərdən, o cümlədən, 90-cı il hadisələrinin qəfil törənişindən teatrlarda da durğunluğun hökmranlığının başlandığını göstərir. Bununla da, tədqiqatçı haqlı olaraq, teatrın zaman və məkan daxilində baş verən proseslərin içində fəaliyyət növünü də dəqiqləşdirir.

Ədalət müəllim bu fəsildə ciddi bir siyasətçi kimi dövrün ictimai-siyasi hadisələrinin fonunda ağıllı mühakimələr yürüdərək, zamanın mənzərəsini vizuallaşdırır:"...Bir tərəfdən, Avropanın demokratiya aləmində kommunistlərin əli ilə pozitiv proseslər cərəyan edirdi, digər tərəfdə isə sonu görünməyən Qarabağ, Çeçenistan, Gürcüstan hadisələri başlayırdı.Və ən qorxulusu bu idi ki, həmin iddialar getdikcə ehtirasları qızışdırır və qanlı müharibə ocaqları meydana gətirirdi.

Sovetlər Birliyinin keçmiş respublikaları sırasında Azərbaycan yenidənqurmanın xalqlara vurduğu maddi və mənəvi zərbənin ağırlığına görə birincilər sırasındadır." Lakin Məryəm Əlizadənin

təbirincə sitatlanan fikirlərdə müəllif başqa bir maraqlı fakta da istinad edir: belə ki, yenidənqurmanın yeni iqtisadi siyasəti teatr prosesinin zahiri səciyyəsinə müsbət təsir göstərdi, özəl sektorda yeni teatrlar yaranmağa başladı.Bu teatrların əksəriyyəti sənətin inkişafını və gələcəyini düşünmür, kommersiya məqsədi daşıyırdı.Özəl poetika və yaradıcı metodları ilə fərqlənən ""Yuğ" və "Gənclər" Teatr studiyaları oldu.

Buna baxmayaraq, ölkədə olan hərc-mərclik, bir qədər sonra məşhur "təmir" sözü teatr binalarını boşaldır, onu tamaşaçısız qoyur...Bununla da teatrın istehsalçı bir incəsənət müəssisəsi kimi ictimai və sosial-siyasi hadisələr, həm də iqtisadi gedişatlar burulğanında çapaladığı aşkarlanır.

Biz monoqrafiyanın məzmununu danışmaq fikrində deyilik. Onu qeyd edə bilərik ki, teatr atmosferinin korlanma səbəbləri, onun tədricən özünəgəlmə prosesi şərh edilməklə yanaşı, həm də inkişaf perspektivləri göstərilir.

Ədalət Vəliyev "teatr həyatın güzgüsüdür" deyib, fəlsəfi fikirlərin izahı ilə kifayətlənmir, əksinə, öz vətəninin bütün tarixini monoqrafiyada əks etdirməyə çalışır.Gəlin, belə bir sitata diqqət edək:"...Əgər tarixçi F.Fukiyama ikiyə bölünmüş alman xalqının 44 ildən sonra yenidən birləşməsini yeni təfəkkürün, XX1 əsr təfəkkürünün təzahür simvolu kimi yozursa, biz bunu qəbul edirik.

Əgər bu, həqiqətən baş verirsə, yeni təfəkkür öz mövqelərinə varırsa, onda görəsən niyə güney və qüzey azərbaycanlılarının birləşməsi problemə çevrilib?" Bu, o deməkdir ki, istəsək də, istəməsək də, siyasət və teatr qoşa qanad kimi zamanla birgə addımlayır. Budur, teatrın sabahını düşünənin ağıllı yozumu!

Tədqiqatçı 90-cı illəri Azərbaycanda milli oyanış və milli özünüdərkin onilliyi adlandırır. Sözsüz ki, oyanışlar incəsənətdən də yan ötməyəcəkdi.

Azərbaycan teatrı əqidə və ruh məsələsində həmişə özü olmağa çalışaraq, partiyalı mövqedə dayanmış, onun ali məqsədlərinin təbliğçisinə çevrilmişdir.Lakin bu gün tamaşaçıya hadisəyə çevrilən tamaşalar lazımdır.

Dünya qapılarının dünya sakinlərinin üzünə açıq olduğu bir zamanda imitasiya məsələsi də tükənəcəkdir. Ona görə də milli ruhumuzu, milli incəsənətimizi qorumaq, inkişaf etdirmək, onu Avropa standartlarına uyğunlaşdırmaq vacibdir. Bu, bir teatr tədqiqatçısının ağıllı siyasəti deyilmi?

***

Biz kitabın fəsilləri və bölmələrinə, az da olsa, işıq salmağa çalışdıq.Monoqrafiyanın mövzusunun fakt və informasiya dairəsi o qədər genişdir ki, onun barəsində bir resenziyada əhatəli şəkildə yazmaq qeyri-mümkündür. Tədqiqatçının maraq doğuran fikir izahlamasının ən ciddi məqamlarından biri də ondan ibarətdir ki, müasir Azərbaycan teatrşünaslığının gözü sayılan, hər birinin yer və söz sanbalı olan hörmətli alimlər İnqilab Kərimov, Məryəm Əlizadə, İlham Rəhimli, İsrafil İsrafilov, Aydın Talıbzadə kimi sənət bilicilərinin müvafiq mövzu kontekstində irili-xırdalı əsərləri və ya mətbu çıxışları fonunda da analiz aparılır, konkret müəllif münasibəti bildirilir və tutarlı dəlillərlə şərh verilir. Kitaba fərdilik prizmasından yanaşıldıqda görürük ki, onun gözəlliyi qoyulan məsələyə fərdi, orijinal üsulla müstəqil münasibətdədir.

Monoqrafiyanın çox çətin terminlərlə zəngin olmasına baxmayaraq, oxucunun onu başa düşməkdə çətinlik çəkəcəyinə inanmırıq. Müəllif teatrın sabahı naminə kitabını ciddi elm araşdırıcılarının öhdəsinə verir. Bu, işin çox maraqlı cəhətidir. Çünki monoqrafiya elm araşdırıcılarını çox ciddi vəzifə yükü ilə yükləyir.

***

**İstedadlı tədqiqatçı-alim Ədalət Vəliyev Azərbaycan teatr tarixini araşdırmaqla Azərbaycan tarixinin bir qolunu işıqlandırır.Hörmətli tədqiqatçımız tədqiqatçılar qarşısında məhz milli tarixin yaradıcılarından birinə çevrilməyi və onun tarix arxivinə hədiyyə edilməsini tövsiyə edir.**

● **Rafiq RƏHİMLİ,**
***teatrşünas-dramaturq,***
***"Qızıl Kitab" mükafatı laureatı***